

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 167 (21.577)

*7 sentyabr 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakının Nizami rayonundakı 229 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısı məktəbin sinif otaqlarına, fənn kabinələrinə, akt və idman zallarına baxıb.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verib.

Bildirilib ki, bu təhsil ocağının üçmərtəbəli binasında yaradılan şərait şagirdlərin biliklərin əsaslarına daha dolğun yiyələnmələrinə, müəllimlərin tədris prosesini müasir proqramlar əsasında aparmağa imkan verəcək. Tədrisin Azərbaycan və rus dillərində aparıldığı məktəbdə 964 şagird yeri var. Burada şagirdlərin təlim-tərbiyəsi ilə 101 müəllim məşğul olur. Məktəbin 43 sinif otağı var. Buradakı fənn kabinələri, laboratoriyalar və digər otaqlar zəruri dərs ləvazimatı ilə təchiz olunub. Məktəbdə şagirdlərin qidalanmaları üçün bufet də yaradılıb. Təhsil ocağının akt və idman zalları da müasir standartlar səviyyəsində qurulub.

Təhsil ocağını bu il 70 məzun bitirib ki, onlardan da 54-ü ali məktəbə qəbul olunub. Onların 19 nəfəri 500-dən yuxarı bal toplayıb.

## Naxçıvan şəhərində təhsil yarmarkası keçirilib

***Sentyabrın 6-da Naxçıvan şəhərində təhsil yarmarkası keçirilib. Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbdə təşkil edilən tədbiri Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açaraq muxtar respublikada təhsil sahəsinə göstərilən dövlət qayğısından danışıb.***





Bildirilib ki, ənənəvi olaraq keçirilən təhsil yarmarkaları muxtar respublikamızda təhsilin keyfiyyət və kəmiyyətcə inkişaf etdirilməsinə öz təsirini göstərib. Gənc kadrların fəaliyyətinin nəticəsidir ki, ali və orta ixtisas məktəblərinə yüksək balla qəbul olunanların sayı ilbəil artır. Bu tədris ilində də təhsil müəssisələrinə gənc kadrların yerləşdirilməsi məqsədilə şəhər və rayonların təhsil şöbələri və məşğulluq mərkəzlərinin birgə fəaliyyəti nəticəsində muxtar respublika ərazisində yerləşən məktəblərin vakant yerləri ixtisaslar üzrə müəyyənləşdirilib. Muxtar respublikanın ayrı-ayrı təhsil müəssisələri üzrə boş yerlərin uçotu aparılıb. Müəyyən edilib ki, muxtar respublikada 18 Azərbaycan dili və ədəbiyyat, 42 ingilis dili, 32 riyaziyyat, 27 informatika, 32 tarix, 55 coğrafiya, 24 fizika, 35 kimya, 33 biologiya, 20 fiziki tərbiyə, 57 nəfər ibtidai sinif müəlliminə ehtiyac vardır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək deyib ki, muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, təhsilin inkişafı sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində son illərdə 200-dən çox təhsil müəssisəsi tikilərək və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilib, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə, o cümlədən kompüter və elektron lövhələrlə təchiz olunub. Hazırda bu sahədə işlər davam etdirilir. Muxtar respublikada elektron təhsilin tətbiqi, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılması, tədrisin əyaniliyi və səmərəliliyinin artırılması da diqqətdə saxlanılıb. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 20 iyun 2014-cü il tarixdə Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradılır ki, bu da şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artırılmasında mühüm rol oynayır. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən isə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslər təşkil edilir.

Vurğulanıb ki, məhdud fiziki imkanların təhsilə cəlbi üzrə distant təhsil mərkəzi yaradılıb, valideyn himayəsindən məhrum olan uşaqların, eləcə də ümumtəhsil müəssisələrində tədrisə cəlb edilən aztəminatlı, sağlamlıq imkanları məhdud uşaqların pulsuz məktəbli geyimləri və ləvazimatları ilə təminatı da diqqətdə saxlanılıb. 2016-2017-ci tədris ili üzrə bu kateqoriyadan olan 397 uşaq pulsuz məktəbli geyimi və ləvazimatları ilə təmin edilib. Muxtar respublikanın ümumtəhsil məktəblərində fəaliyyət göstərən müəllimlər də dövlət qayğısı ilə əhatə olunub. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında” 22 iyun 2015-ci il tarixli Sərəncamı ilə müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları isə orta hesabla 2 dəfə artırılıb. Muxtar respublikada təhsil sahəsində aparılan dövlət siyasətinin nəticəsidir ki, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda ilbəil artım tempi müşahidə olunub. 2015-2016-cı tədris ili üzrə ali məktəblərə qəbul olan məzunların 338-i imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 arası bal toplayıb ki, bu da ötən ilə nisbətən 25 nəfər, yaxud 8 faiz çox olub. Muxtar respublikanın ümumtəhsil müəssisələri ilə yanaşı, ali və orta ixtisas təhsili müəssisələrinin də maddi-texniki bazasının yaxşılaşdırılması, eləcə də ixtisaslı kadrların hazırlıq səviyyəsinin artırılması diqqətdə saxlanılır. Ali Məclis Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 27 iyul 2015-ci il tarixli Sərəncamı ixtisaslı kadrların hazırlanmasında, onların aid təşkilatlarda müvafiq təcrübələr keçmələrində, eləcə də müvafiq işlə təmin olunmalarında mühüm mərhələ təşkil etməkdədir.

Rəhman Məmmədov bildirib ki, muxtar respublikada ümumtəhsil məktəblərinin pedaqoji kadrlara olan tələbatını ödəmək məqsədilə hər il təhsil yarmarkası keçirilir. Ümumtəhsil məktəbləri üzrə boş iş yerləri təhsil yarmarkalarında işaxtaranlara təqdim olunur. Təhsil işçiləri üçün muxtar respublikada bütün zəruri şərait yaradılıb. Ucqar kəndlərdə belə, müasir təhsil infrastrukturu formalaşıb. Kənd yerlərindəki təhsil müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər və stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib.

Rəhman Məmmədov gənc müəllimlərə göstərilən dövlət qayğısından gənclərin bəhrələnəcəklərinə, təhsil yarmarkasında fəal iştirak edəcəklərinə əminliyini ifadə edib, onlara yeni əmək fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirib ki, cari ilin ötən dövrü ərzində təşkil edilmiş əmək yarmarkalarında, ümumilikdə, 352 nəfər peşə və ixtisasına uyğun işlə təmin olunub. Əmək yarmarkalarında gənclərin, qadınların, aztəminatlı və məhdud fiziki imkanlı şəxslərin işlə təmin olunması diqqət mərkəzində saxlanılır. 2016-cı ilin müvafiq dövrü ərzində təşkil edilmiş əmək yarmarkaları vasitəsilə işlə təmin olunanların 118 nəfərini gənclər, 42 nəfərini qadınlar, 19 nəfərini aztəminatlı şəxslər, 10 nəfərini isə məhdud fiziki imkanlı vətəndaşlar təşkil edib. Məşğulluq mərkəzləri tərəfindən tətil günlərində işləmək istəyən 33 nəfər tələbə xüsusi peşə hazırlığı tələb etməyən mövsümi işlərlə təmin olunub. Bu gün ümumtəhsil müəssisələrində vakant yerlərin tutulması üçün təşkil olunmuş əmək yarmarkası pedaqoji kadrların ixtisaslarına uyğun daimi işlə təmin edilmələrinə əlverişli imkanlar yaradır.

Sonra yarmarkaya gələnlər vakant iş yerləri ilə tanış olublar. Bu məşğulluq tədbirində 304 nəfərə işə göndəriş verilib.

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı tədbir keçirilib.***



Tədbiri Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq bildirib ki, payız-qış mövsümündə cəzaçəkmə müəssisələrinin fasiləsiz istiliklə təmin olunması, məhkumların isti geyim və ərzaqla təminatı diqqətdə saxlanılmalı, ehtiyat yaradılmalıdır.

Nazir qeyd edib ki, payız-qış mövsümünə hazırlıqla bağlı artıq neçə ildir, qazanılan təcrübə nəzərə alınaraq bu il də qışa hazırlığı vaxtında yerinə yetirməliyik. Nazirliyin balansına daxil olan inzibati binaların qızdırılması üçün qazanxanalar və kombi sistemləri quraşdırılıb. Quraşdırılan qazanxana və kombi istilik sistemləri işlək vəziyyətdədir. Penitensiar Xidmətdə, cəzaçəkmə müəssisələrində suqızdırıcıları yenilənib və relyefə uyğun avadanlıqlarla əvəz olunub. Cəzaçəkmə müəssisələrinin istilik sistemini 3 qazanxanada quraşdırılan 5 qazan təmin edir. Bu il nasazlıqla bağlı qazanxanalardan biri dəyişdirilib. Cəzaçəkmə müəssisələrinin elektrik ehtiyacını təmin edən generator əsaslı təmir olunub, sıradan çıxmış akkumulyatorlar yeniləri ilə əvəz edilib. Qaz kəsintisi zamanı istiliyin fasiləsiz verilməsi məqsədilə dizel yanacağına keçidlə əlaqədar 5 ədəd yanacaq çəni quraşdırılıb, dizel yanacağı ehtiyatı yaradılıb. Müəssisənin qazanxanası qazanxana maşinisti kurslarını bitirmiş əməkdaşlar və məhkumlar tərəfindən idarə edilir. Qazanxanaların istismarı zamanı təhlükəsizlik tələblərinə riayət edilməli, qazdan və elektrik enerjisindən səmərəli istifadə olunmalıdır.

Şəxsi heyətin qış mövsümü ilə bağlı geyim dəstləri ilə təminatı diqqət mərkəzində saxlanılıb, lazımi ehtiyat yaradılıb, əlavə ehtiyac yaranan geyim dəstləri ilə bağlı sifariş verilib.

Vurğulanıb ki, məhkumların ərzaq təminatı da daim diqqət mərkəzində saxlanılır. Alınan məhsulların təzə və keyfiyyətli olmasına diqqət yetirilməklə payız-qış mövsümünə uyğunlaşdırılması təmin edilməkdədir.

Məhkumların sağlamlığı daim diqqət mərkəzindədir. Tibbi-sanitar hissəsində lazımi dərman preparatlarının alınması, məhkumların mütəmadi olaraq həkim müayinəsindən keçirilməsi təmin olunub. Qış mövsümünə xas xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının alınması üçün sifariş verilib.

Məruzə ətrafında Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Qəzənfər Mahmudov, Mühafizə taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Rəşad Cəlilov, İstintaq Təcridxanasının rəisi, ədliyyə mayoru Mahir Hümbətov, 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin rəisi vəzifəsini icra edən, ədliyyə polkovnik-leytenantı Möhbalı Tağıyev, nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi vəzifəsini icra edən, ədliyyə müşaviri Səttar Zamanov çıxış ediblər.

**Xəbərlər şöbəsi**

Naxçıvan məhsulları xarici bazarda

# “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac potensialı artıb

*Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər Naxçıvanın aqrar regiondan sənaye regionuna çevrilməsinə şərait yaradıb, nəticədə, muxtar respublikada müxtəlif çeşidlərdə yüksəkkeyfiyyətli məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb.*





Belə müəssisələrdən biri də “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisədə Almaniya, İtaliya və Türkiyə respublikalarından alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb, müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün geniş imkanlar yaradılıb. Mebel fabrikində divan, kreslo və yumşaq oturacaqlı stullar, döşəmə, həmçinin ofis, mətbəx, yataq mebelləri, qapı-pəncərə, dekorasiya və qapı-pəncərələrin boyanması üçün boyaqxana sexləri fəaliyyət göstərir.

Burada ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, sosial və inzibati binalar üçün müxtəlif avadanlıqlar istehsal edilməklə yanaşı, dizayn-dekorasiya xidmətləri də göstərilir. Fabrikdə tətbiq olunan keyfiyyətə nəzarət sistemi mebel istehsalında istifadə olunan materialların və hazır məhsulların uzunömürlülüyünü təmin edir. Material kimi istifadə olunan məhsulların bir qismi Türkiyə Respublikasından, Afrika ölkələrindən, Gürcüstandan idxal olunur. Digər materialların bir qismi isə Naxçıvana məxsusdur.

İqtisadi əlaqələri genişlənən müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələrinin yaradılması mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, silikon yorğan, döşək və yataq bazası istehsalı sahələrinin biznes-planı hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunub. Ümumi dəyəri 1 milyon 800 min manat olan layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 2014-cü ildə 1 milyon 200 min manat dövlət maliyyə dəstəyi göstərilib. Layihəyə uyğun olaraq, müəssisənin ərazisində yeni istehsal sahəsi üçün bina inşa olunub. Türkiyənin “Elektroteks” və “İMS Makina” şirkətlərinin avadanlıqları alınıb gətirilib və idxal olunan dəzgahlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb. Bu istehsal sahəsində çalışan yerli mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunub. İstehsal gücü saatda 200 ədəd yorğan, gündə 100 ədəd döşək və 100 ədəd yataq bazası olan yeni istehsal sahəsinin yaradılması nəinki həmin məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradıb, həm də müəssisənin ixrac imkanlarını genişləndirib.

Burada istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb. Laboratoriyada müasir avadanlıqlar quraşdırılıb ki, bu da istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarətin təmin olunmasına imkan verir. Hazırlanan məhsullar “Gəmiqaya” tanıtım nişanı ilə fabrikin sərgi-satış salonunda, Naxçıvan şəhərinin “Təbriz” küçəsində, Babək məhəlləsində və Ordubad şəhərində fəaliyyət göstərən mebel mağazalarında satışa çıxarılır. Fabrikdə istehsal olunan klassik, avanqard və modern mebellər ölkəmizin paytaxtında və digər regionlarda da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda Bakı şəhərinin Nərimanov və “Neftçilər” prospektlərində, Sumqayıt, Goranboy, Lənkəran şəhərlərində satış mərkəzləri fəaliyyət göstərir. Müəssisənin satış mərkəzlərinə müraciət edən müştərilərə zövqlərinə və ev şəraitinə uyğun müxtəlif çeşiddə mebellər təklif olunur. Müştərilər hazır mebelləri satış mərkəzlərindən seçə və ya sifariş verə bilərlər.

Hazırda istehlakçılar tərəfindən həm klassik, həm də modern üslubda hazırlanan mebellərə böyük tələbat var. Naxçıvan şəhərində ayrı-ayrı ünvanlarda fəaliyyət göstərən mebel mağazalarında müştərilərin bu yerli məhsula olan münasibətlərini öyrəndik. Naxçıvan şəhər sakini Mahirə Quliyeva qeyd etdi ki, yeni mənzil almışıq. Evimizin dizaynına uyğun mebel seçdik. Burada öyrəndik ki, mebellərin çatdırılması və quraşdırılması fabrikin mütəxəssisləri tərəfindən pulsuz yerinə yetirilir. Mebellərin keyfiyyətindən və göstərilən xidmətdən çox razıyıq.

Ordubad rayon sakini Sevinc Qasımova isə alıcı zövqünü oxşayan hər cür mebellərin olduğunu bildirdi və onu da qeyd etdi ki, müştərilərə seçim etmək imkanı yaradılıb. Hər bir evin ölçüsünə və dizaynına uyğun mebelləri sifariş vermək mümkündür. Bu, çox yaxşı haldır və hər bir müştərinin ürəyincədir.

Naxçıvan şəhər sakini Nazim Məmmədov: – İstehsal olunan məhsulların keyfiyyətli olması işin bir tərəfidirsə, onu olduğu kimi müştəriyə çatdırmaq başqa bir tərəfidir. Yəni bir-birini tamamlayan ayrı-ayrı sahələrdir. Ailə həyatı qurub Bakı şəhərində yaşayan övladım üçün mebel almaq istəyirdim. Öyrəndim ki, Bakı şəhərində də müəssisənin mebel mağazaları fəaliyyət göstərir. Həm məhsulun keyfiyyətindən, həm də göstərilən xidmətdən çox razıyam.

Məhsulları keyfiyyəti ilə seçilən “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti qısa zamanda rəqabətqabiliyyətli müəssisəyə çevrilib. Burada istehsal olunan mebellər daxili bazarda özünə böyük istehlakçı kütləsi toplayıb. Müəssisədə istehsal olunan mebellərin xarici bazarlarda tanıdılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, biznes forumlarda və sərgilərdə iştirak edilir, xarici şirkətlərin nümayəndələri ilə fikir mübadilələri aparılır, bu sahə ilə məşğul olan sahibkarların təcrübələrindən bəhrələnməklə xarici bazarlardan alıcı cəlb edilməsinə çalışılır. Həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, müəssisənin Gürcüstanın Tbilisi və Batumi şəhərlərində satış mərkəzləri yaradılıb. Digər xarici ölkələrdə də müəssisədə istehsal olunan mebellərin satışa çıxarılması nəzərdə tutulur.

“Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına tələbat artıb, ixrac potensialı genişlənib.

✍ **Kərəm HƏSƏNOV**

*Strateji məhsul olan taxıla tələbatın yerli imkanlar hesabına ödənilməsi muxtar respublikamızda diqqət mərkəzində saxlanılır. Bunun üçün Naxçıvanın torpaq-iqlim şəraiti xeyli üstünlüklərə malikdir.*

## Naxçıvanda taxıl əkininə hazırlıq işləri görülür

Hər il artan dövlət qayğısı isə bu sahəyə marağı daha da gücləndirir. Muxtar respublikaya müasir kənd təsərrüfatı texnikalarının gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin davamlı xarakter alması, bu sahə ilə məşğul olan torpaq mülkiyyətçilərinin yüksək reproduksiyalı toxumlarla təchiz edilməsi, taxılçılara güzəştli kreditlərin verilməsi ildən-ilə məhsul istehsalına öz müsbət təsirini göstərir. Bu baxımdan 2016-cı ili də muxtar respublikanın taxılçıları üçün uğurlu illərdən biri saymaq olar.

Məlumat üçün bildirək ki, ötən ilin payızında və bu ilin yazında muxtar respublikada 31 min 579 hektar sahədə taxıl əkilmişdi. Taxıl zəmilərinə aqrotexniki qulluq göstərilib, 94 min 117 ton məhsul istehsalına nail olunub. Orta məhsuldarlıq 29,8 sentner təşkil edib.

Torpaq mülkiyyətçiləri, sahibkarlar gələn ilin bol məhsulunun əsasını qoymaq üçün yenə də sahələrdədir. Onlar taxılın əkilib-becərilməsində başlıca amillərdən biri olan keyfiyyətli şum qaldırılmasına başlayıblar. Bunun üçün bütün rayonlarda mövcud olan texnikaların gücündən səmərəli istifadə olunur. Məqsəd isə ondan ibarətdir ki, taxıl səpini optimal müddətdə başa çatdırılsın.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, bu günədək muxtar respublikamızda 5 min hektaradək sahədə şum qaldırılması işi başa çatdırılıb.

**Xəbərlər şöbəsi**

# Üzümçülük kənd təsərrüfatının gəlirli sahələrindəndir

## *Şərur rayonunda bu sahənin inkişafına geniş imkanlar yaradılıb*

***Meyvəçilik və üzümçülük ölkəmizin iqtisadiyyatında həmişə gəlirli sahələrdən olub. Bu təsərrüfat sahələrində təcrübəli bağbanlar yetişib. Arxeoloji qazıntılar zamanı Naxçıvanın qədim abidələrindən əldə edilmiş üzüm toxumları, şərab istehsalı ilə əlaqədar daş alətlər və müxtəlif maddi-mədəniyyət nümunələri Tunc dövründə burada təsərrüfat və məişət həyatında üzümçülüyün mühüm rol oynadığını söyləməyə əsas verir.***

Meyvə və üzüm sortlarının ən qiymətli seçmələri xalq seleksiyası yolu ilə yetişdirilib. Elə bağban var ki, ən görkəmli seleksiyaçı alimlər də onun işinin bəhrələrinə, uzaqgörənliyinə həsəd aparırlar. Qeyd edək ki, ana yurdumuzun hər bölgəsində müxtəlif sort və çeşidlərdə meyvə və üzüm yetişdirilib. Belə bölgələrdən biri də Şərur rayonudur. Bu torpaqda keçmişdən müxtəlif sortlarda üzümlər yetişdirilib. Şərurda üzümçülüyün inkişafı üçün təbii iqlim şəraiti var. Burada ən tezyetişən, uzun müddət saxlanmağa davamlı, ən yüksək şəkər toplayan, ən çox məhsul verən üzüm sortları becərilib və bu gün də becərilməkdədir. Sapsarı, kəhrəba kimi hazan, kişmişi, şəfeyi üzümləri, sözün əsl mənasında, hər kəsə can dərmanı əvəzi olub.

Bölgədə üzümçülüyün geniş sənaye miqyaslı inkişafının əsası ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə qoyulub. Burada bir məqama toxunmaq yerinə düşər. Belə ki, Şərur rayonunda qədim zamanlardan üzüm becərilsə də, artıq sovet dövründə doğma torpağın səxavətinə bələd adamların arzusunun əksinə olaraq, pambıq əkininə göstəriş verilmişdi. Ancaq Naxçıvanın iqlimi pambıqçılıq üçün əlverişli deyildi. Qozalar hasilə gəlib yığılmaq vaxtına çatanda soyuqlar düşür, məhsul zay olurdu. Üzümün isə yığımı sentyabr ayından başladığından məhsul vaxtında tədarük edilirdi. Bu mənada, 1969-cu ildən sonra ulu öndər Heydər Əliyevin göstərişi ilə üzüm plantasiyalarının salınması üçün qəbul edilən qərar şərurlulara böyük bir töhfə oldu. Sevə-sevə dədə-baba məşğuliyyətlərinə qayıdan kənd adamlarının gün-güzəranı həqiqi mənada dəyişdi. Bu qərarın uğurlu icrası isə 70-ci illərin sonlarında Azərbaycanın üzümçüləri içərisində Şərur üzümçülərinə liderlik qazandırdı. Bu illərdə respublikada yığılan 1 milyon ton məhsulun 10-12 faizi Şərur rayonunun payına düşürdü.

Rayon ağsaqqalları bildirirlər ki, Şərurda məhz üzümçülüyün inkişaf etdirilməsindən sonra gözoxşayan evlər tikilib, şəxsi avtomobillərin sayı artıb. O vaxtlar ailələrin əksəriyyəti çoxuşaqlı idi və onların dolanışığı, əsasən, bu sahədən gələn gəlirlə təmin olunurdu. Sosialist Əməyi Qəhrəmanı Yusif İsmayılovun sədr olduğu Çərçiboğan kolxozu, həmçinin Xətai, Dərvişlər, Maxta, Xanlıqlar və Püsyan kəndlərinin üzümçüləri öndə gedirdilər. Deputat Laləzər Əlirzayeva, Süleyman Nəsirov da bu sahədə böyük nailiyyətlər qazanan üzümçülərdən idilər. Muğanlı kəndindən Azərbaycanın əməkdar üzümçüsü Əhməd Məcidovun briqadası 50 hektar üzüm bağı becərirdi.



Rayonda üzümün ilkin emalı üçün 6 zavod vardı. Üstəlik, əlvan növ süfrə üzümlərindən tonlarla Rusiya bazarına da göndərilirdi. Təkcə 1985-ci ilin statistik rəqəmlərinə nəzər salanda məlum olur ki, həmin ildə Şərurda 7306 hektar üzüm bağı olub. Həmin il təkcə SSRİ-nin başqa şəhərlərinə 661,7 ton süfrə üzümü göndərilib. Bu, o vaxt idi ki, artıq Mixail Qorbaçov bədxah siyasətini yenicə həyata keçirməyə başlamışdı. Bu siyasət Naxçıvanın, o cümlədən Şərurun da üzüm bağlarını məhv etdi. Üzümçülər əllərinin əməyi ilə hasilə gətirdikləri, qazanc yerləri olan bağların sökülməsinə ürəkağrısı ilə baxırdılar. Böyük zəhmət hesabına yaradılmış üzüm bağları məhv edilərək həm iqtisadiyyata ciddi ziyan vurulurdu, həm də insanlar gəlir mənbələrindən məhrum edilirdilər.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu sahə də inkişaf etdirildi. 2002-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən üzümçülük və şərabçılığın inkişaf etdirilməsi haqqında qanun qəbul edildi. 2004-cü ilin 11 fevralında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış regionların 2004-2008-ci illər üzrə sosial-iqtisadi inkişafı proqramı insanlarda yüksək əhval-ruhiyyə yaratdı və yeni üzümlüklərin sahəsi artırılmağa başladı. Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” isə birbaşa üzümçülüyün inkişafına hesablanmış dövlət sənədidir. Dövlət proqramının məqsədi əhalinin təzə və keyfiyyətli süfrə üzümünə olan tələbatının daha dolğun ödənilməsindən, üzüm məhsullarının ixracının artırılması üçün ölkədə üzümçülüyün inkişafını stimullaşdırmaqdan ibarətdir. Proqramda deyilir: “Üzüm digər kənd təsərrüfatı məhsulları arasında hər 100 hektar torpaq sahəsi üzrə yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul buraxılışına görə ən yüksək göstəriciyə malik olan texniki bitkilərdən biridir”.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikada üzümçülüyün inkişaf etdirilməsinə və istehsalının artırılmasına, üzüm bağlarının salınmasına da şərait yaradıb.

Bu gün Şərur rayonunda 98 hektar sahədə üzüm bağı var. Onlardan 91 hektarı barverəndir. Cari ildə təsərrüfatçılar 5 hektar sahədə yeni bağ salıblar. Bağlardan ötən il 1435 ton, hektardan 157,7 sentner məhsul götürülüb. Yaxşı haldır ki, üzümçülər o vaxt bağlar söküləndə qiymətli növləri seçib həyətyanı sahələrində becəriblər, kökünün kəsilməyinə imkan verməyiblər. Bu gün isə o sortları pay torpaqlarına köçürürlər. Yeni üzüm bağları salan Əbdürrəhman Mehdiyev, Şücəddin Seyidov, Knyaz Cabbarov, Abdulla Adıgözəlov bu sahəyə daha çox maraq göstərirlər.

Çərçiboğan kənd sakini Əbdürrəhman Mehdiyev üzümün gəlirli sahə olduğunu bildirdi. O, torpaq islahatı həyata keçiriləndən sonra yenidən yaxşı bağ salıb. Bağında süfrə üzümləri becərir. Deyir ki, ən sərfəli sahədir. Yaxşı məhsul götürmək isə yalnız becərmədən asılıdır. Onu da diqqətimizə çatdırdı ki, elə il olub, hektardan 480 sentnerə qədər üzüm tədarük edib.

*Bəli, dövlət bu gün kəndliyə kredit də verir, texnika da, su da, digər qayğılar da göstərir. Təki bir vaxtlar bağlarda becərilən minillik qədim üzüm sortları yenidən süfrələrimizi bəzəsin. Bu işdə Şərur üzümçüləri böyük fəallıq göstərirlər.*

**Hafizə ƏLİYEVA**

***XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində azərbaycanlılara qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri təcrübəyə əsaslanırdı. "Hnçak" və "Daşnaksutyun" partiyalarının silahlı dəstələri Azərbaycan kəndlərinə hücum edir, qırğınlar törədir, boşaldılmış kəndlərdə Türkiyədən gələn erməni ailələrini məskunlaşdırırdılar.***

## Naxçıvan və Şərur-Dərələyəzdə erməni qırğınları

Ermənilər, ilk növbədə, azlıq təşkil etdikləri və strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur qəzalarında sayca üstünlüyə malik olmaq istəyirdilər. Daha sonra isə Qarabağda qırğınlar törədərək həmin əraziləri ələ keçirmək və nəticədə, İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarının ərazisində erməni dövlətinin əsasını qoymaq istəyirdilər. 1905-1906-cı illərdə törədilən bütün qırğınların mahiyyətində məhz bu amil dayanırdı.

1905-1906-cı illərdə İrəvan quberniyasında baş verən qırğınlar həmin dövrün mətbuatında və o dövrün müəlliflərinin əsərlərində geniş şəkildə işıqlandırılmışdır. M.S.Ordubadi 1911-ci ildə çap etdirdiyi "Qanlı sənələr" (1905-1906-cı illərdə Qafqazda baş vermiş erməni-müsəlman davasının tarixi) kitabında erməni silahlı dəstələrinin 1905-ci ildə Naxçıvan və İrəvan qəzalarında törətdikləri qırğınların miqyasını oxuculara ətraflı təqdim edir. Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adı altında çap edilən "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" əsərində erməni qmdatxanalarının (terror təşkilatlarının) muzdlu qatillərinin əli ilə neçə-neçə günahsız insanların, o cümlədən rusların və ermənilərin də ölümünə bais olduğunu yazır.

XX əsrin əvvəlində Naxçıvan qəzasında mövcud olan 170 kənddən 130-da azərbaycanlılar, 40-da isə tarixən bu ərazilərə yerləşdirilmiş ermənilər yaşayırdılar. Şərur-Dərələyəz qəzasına gəldikdə isə həmin vaxt qəzada 163 kənd mövcud olmuşdur ki, onlardan 109-u Dərələyəz nahiyəsində, 54-ü isə Şərur nahiyəsində olmuşdur. Şərur nahiyəsində yalnız 6 kənddə, Dərələyəz nahiyəsində isə 23 kənddə ermənilər yaşayırdı. Şərur-Dərələyəz qəzasının 76 min nəfər əhalisinin 55 min nəfərini azərbaycanlılar, 21 min nəfərini ermənilər təşkil edirdi.

Əslində, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının kəndlərinə ermənilər əvvəlcə Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin şərtlərinə əsasən, İran və Türkiyədən, daha sonra isə 1877-1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilmişdilər.

M.S.Ordubadi Naxçıvan hadisələrini şərh edərkən yerli hakimiyyətin, xüsusilə də qəza polis rəisi kapitan Angilin (Aksel Enkel nəzərdə tutulur – N.M.) qırğınlara laqeyd qaldığını vurğulayır.

Naxçıvanda qırğınların başlanması barədə "Novoe Obozrenie" qəzetinə istinadən "Kaspi" qəzeti yazırdı: "…son günlər Naxçıvan şəhərində və onun yaxınlığındakı kəndlərdə nə isə qeyri-adi hadisələr baş verir. Əvvəlcə ermənilərlə tatarlar arasında hiss olunan gərginlik sonradan düşmənçiliyə çevrildi və tək-tək ölümlə nəticələndi. Nəhayət, mayın 10-da və sonra 11-də gündüz və gecələr bu münasibətlər daha kəskin forma aldı. Ayın 12-də gündüz şəhərdə, onun bütün küçələrində tüfəng və tapançalardan atəş yayılmağa başladı. Axşama yaxın ölən və yaralananların sayı onlarla idi. Ayın 13-nə keçən gecə çox ağır oldu. Şəhərin küçələrində və ayrı-ayrı hissələrində şiddətli mübarizə ilə yanaşı, yanğınlar başlandı. Evlər və köşklər yandı…"

"Kavkaz" qəzeti isə mayın 12-də Naxçıvandan vurulan teleqram əsasında yazmışdı ki, öldürülən, yandırılan və yaralananların sayı 100-ü ötmüşdür. Qəzet qarışıqlığın ətraf kəndlərə də yayıldığını xəbər verirdi.

Naxçıvanda qırğınların başlanması haqqında xəbər alan Vorontsov-Daşkovun köməkçisi Sultan Krım-Girey (Gəray) Cəfərqulu xan Naxçıvanskiyə teleqram göndərmişdi ki, zorakılıqların və qan tökülməsinin qarşısını alsın. Cəfərqulu xan Naxçıvanski isə cavab teleqramında bildirmişdi ki, İrəvandan əlavə batalyon gələnədək barışığa nail olmaq çətin ki mümkün olsun. "Kaspi" qəzeti "Kavkaz" qəzetinə istinadən xəbər verirdi ki, mayın 14-dən 15-nə keçən gecə qoşunların Naxçıvana gəlməsindən sonra şəhərdə sakitlik bərqərar olsa da, vəziyyət ciddidir. Daha sonra qəzet Tumbul kəndinin yandırıldığını, 40 nəfərin həlak olduğunu yazırdı.

Mayın 15-də Qafqazın şeyxülislamı Abdussalam Axundzadə Naxçıvana gedir. O, İrəvan, Şərur və Naxçıvan qazıları, İrəvan arximandriti Karapetlə və Cəfərqulu xanla birlikdə Qaraxanbəyli, Tumbul, Qoşadizə və Şıxmahmud kəndlərinə baş çəkir. Ermənilər Naxçıvan qəzasında müsəlmanlardan layiqli cavab aldıqdan sonra qınlarına çəkilmiş, qırğınların mərkəzini Şərur-Dərələyəz və İrəvan qəzalarına keçirməyə cəhd etmişdilər.

Qafqaz Canişinliyindən sakitliyi bərqərar etmək üçün Naxçıvan qəzasına ezam edilən general Maqsud Əlixanov-Avarski Naxçıvandan Sultan Krım-Gireyə göndərdiyi teleqramda bildirirdi ki, yolüstü müsəlman və erməni kəndlərini sakitləşdirirdim. Şərur-Dərələyəzin dağlıq hissəsində və Ordubad məntəqəsində isə vəziyyət gərgindir.

Ermənilər növbəti qırğınları Dərələyəz mahalında törətmişdilər. İlk qırğınlar azərbaycanlıların ermənilərlə qarışıq yaşadıqları kəndlərdə – Qndevaz və Herher kəndlərində törədilmişdi. Mayın 12-dən iyulun 10-dək Dərələyəzdə milli zəmində toqquşmalar qısa fasilələrlə davam etmişdir. Oktyabrın 27-də ətraf erməni kəndlərindən cəmləşən silahlı dəstələr azərbaycanlılar yaşayan Hors kəndinə hücum etmişlər. Türklər müqavimət göstərərək 40 nəfər itki vermişlər. Ermənilər əvvəlcə kəndi talan etmiş, sonra isə bütün evlərə od vuraraq yandırmışdılar.

Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan "Ermənilər və müsəlmanlar arasında silahlı toqquşmalar haqqında canişinə hesabat məruzəsi" adlı sənəddə 1905-ci ilin oktyabr ayının sonlarında Dərələyəzdəki Azərbaycan kəndlərinin ermənilər tərəfindən yandırılıb talan olunduğu, dinc əhalinin isə kütləvi şəkildə qətl edildiyi qeyd edilir. Sənəddən məlum olur ki, 1905-ci il oktyabrın 27-də Şərur-Dərələyəz qəzasının 6 erməni kəndindən 700-ə yaxın silahlı erməni Hors kəndinə hücum etmişlər. Sənəddə 53 azərbaycanlının öldürüldüyü və 255 evin yandırıldığı, mal-qaranın oğurlanıb aparıldığı qeyd olunur. Horsdakı hadisələrlə əlaqədar İrəvan və Yeni-Bəyazid qəzasının müsəlmanlarını həyəcan dalğası bürüdüyü də sənəddə öz əksini tapmışdır.

Təqribən, bir ay sürən nisbi sakitlikdən sonra 1905-ci il noyabrın 26-30-da ermənilər yenidən Naxçıvanda iğtişaşlar törətmişlər. Bu barədə M.S.Ordubadi "Qanlı illər" əsərində yığcam da olsa, məlumat vermişdir. Noyabrın 30-da ermənilər və kazaklar əlbir olaraq Cəhri kəndini yandırmış və talan etmişdilər.

M.S.Ordubadinin "Angil" adlandırdığı Naxçıvan qəza rəisi kapitan Aksel Enkel 1905-ci ildə baş verən erməni-müsəlman davasında təxribatçılıqla məşğul olduğuna, günün günorta çağı öz gözətçilərinin köməyi ilə müsəlman kəndlərini qarət etdiyinə görə 1906-cı ilin dekabrında "Difai" partiyasının üzvləri tərəfindən qətlə yetirilmişdi.

Naxçıvan qəzasında yerli əhalinin mütəşəkkilliyi, özünümüdafiə dəstələrinin mütəşəkkil erməni silahlı dəstələrinə qarşı ciddi müqavimət göstərmələri ermənilərin yeni-yeni əraziləri ələ keçirmək planlarını altüst etmişdi. Ona görə də Naxçıvan qəzasında ermənilər uzun müddət qınlarına çəkilərək silahlı hücumlara son qoymuşdular.

1906-cı ilin avqust-sentyabr aylarında erməni silahlı dəstələri qırğınların ağırlıq mərkəzini Zəngəzurun Oxçu-Şabədək bölgəsinə keçirdikləri zaman qırğınlara son qoyulması üçün Ordubad nahiyəsində yaradılan könüllü dəstələr hərəkətə keçmişdilər. 800 nəfərə yaxın ordubadlı könüllülərinin və 1000 nəfərə yaxın Oxçu-Şabədək silahlılarının iştirakı ilə sentyabrın 16-17-də Oxçu-Şabədək kəndləri ermənilərin işğalından azad edilmişdi. Bundan sonra sağ qalan əhalinin yenidən öz kəndlərinə qaytarılması prosesi başlanmışdı.

Fakt odur ki, 1905-1906-cı illərdə erməni kilsəsinin və erməni siyasi partiyalarının maliyyələşdirdikləri silahlı dəstələrin Naxçıvan qəzasında silah gücünə etnik təmizləmə siyasəti həyata keçirməklə yeni erməni anklavı yaratmaq cəhdləri yerli əhalinin ciddi müqaviməti nəticəsində baş tutmamışdır.

Ümumiyyətlə, 1905-1906-cı illər erməni-müsəlman iğtişaşları nəticəsində İrəvan və Yelizavetpol (Gəncə) quberniyaları ərazisində 300-dən artıq azərbaycanlı yaşayış məntəqəsi viran edilmiş, əhalisi etnik təmizlənməyə və kütləvi qırğınlara məruz qoyulmuşdur.

*Ermənilərin İrəvan quberniyası ərazisində, o cümlədən də Naxçıvan və Şərur-Dərələyəz qəzalarında 1905-1906-cı illərdə törətdikləri kütləvi qırğınlar XIX-XX əsrlərdə xalqımızın məruz qaldığı soyqırımı və deportasiyalar silsiləsinin bir mərhələsidir.*

**Nazim MUSTAFA**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi,***
***yknews.az informasiya saytı,***
***4 sentyabr 2016-cı il***

***Azərbaycan xalqı tarixdə dəfələrlə milli ayrı-seçkilik ucbatından haqsızlığa məruz qalsa da, özünün ali milli keyfiyyətlərinin tərkib hissəsi olan tolerantlıq, dözümlülük, multikulturalizm kimi yüksək dəyərlərini daim yaşadıb, bu keyfiyyətlərini itirməyib. Məhz bunun nəticəsidir ki, bəzi ölkələrin nüfuzlu ictimai, siyasi, elm xadimləri, müxtəlif dinlərin rəhbərləri və təmsilçiləri əldə etdiyimiz böyük nailiyyətləri, din-dövlət münasibətlərində qazanılmış dəyərləri və bu sahədəki zəngin təcrübəni öyrənməyə, yaymaq, qlobal problemlərin həlli yollarında bizimlə əməkdaşlıq etmək üçün ölkəmizdə keçirilən beynəlxalq miqyaslı mötəbər tədbirlərdə yaxından iştirak edirlər.***

## Naxçıvanda tarixboyu multikulturalizm, tolerantlıq dəyərləri yaşadılıb

Aqressiv təcavüzkarlıq siyasətini, irqçiliyi, faşizmi özünün dövlət siyasəti kimi qəbul edən Ermənistanın 25 ildir, blokada vəziyyətində saxladığı Naxçıvan Muxtar Respublikasında da multikulturalizm, tolerantlıq, dözümlülük kimi yüksək dəyərlər tarixin bütün dövrlərində yaşadılıb və bu gün də yaşadılmaqdadır. Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan qədim tarixə və zəngin mədəniyyətə malik olmaqla yanaşı, həm də Azərbaycan xalqının milli adət-ənənələrinin daim yaşadıldığı bir regiondur. Multikulturalizm isə xalqımızın adət-ənənələrinin tərkib hissəsidir. Naxçıvan tarixboyu Şərq və Qərb arasında müxtəlif sivilizasiyaların, mədəniyyətlərin qovuşduğu region kimi tanınıb, özünün multikultural ənənələrinə görə də diqqəti cəlb edib.

Bu gün muxtar respublikada İslami dəyərlərdən irəli gələn ənənələr yaşadılmaqla yanaşı, azsaylı xalqların nümayəndələrinin mədəni irsinin qorunmasına və dini azadlığına hörmətlə yanaşılır. Bunun ən bariz nümunələrindən biri Ordubad rayonunda yerləşən məbəddir. Abidə 1829-cu ildə rus əsgərləri tərəfindən inşa olunub. Uzun müddət rus pravoslav kilsəsi kimi fəaliyyət göstərib. Abidə şəhərin ən yüksək məkanlarından birində inşa edildiyinə görə ətraf ərazi buradan yaxşı görünür. Bu gün həmin abidə tam bərpa olunaraq qorunur. Məbədin bu günədək qorunub saxlanılması xalqımızın multikulturalizm, tolerantlıq dəyərlərini özünün yaşam tərzinə çevirməsinin ən bariz nümunələrindən biridir.

Onu da qeyd edək ki, sovet dövründə bir sıra tarixi abidələr, dini ibadətgah yerləri kimi Ordubad məbədi də müxtəlif məqsədlər üçün istifadə olunub. Bu tarixi abidə yolun tam ortasında ucaldıldığı üçün həmin illərdə zaman-zaman onun sökülməsi də gündəmə gəlib. Maraqlıdır ki, başqa xalqa və dinə məxsus olan məbədin sökülməsinə rayon ziyalıları ciddi etiraz ediblər və bu etirazlar nəzərə alınıb, məbədə toxunulmayıb.

Bu gün multikulturalizm dəyərlərinin yaşadıldığı muxtar respublikamızda siyasi, ideoloji, dini atmosfer aydın və şəffafdır. Millimənəvi dəyərlərə malik olan əhali tolerantlığı, dözümlülüyü özünün həyat tərzinə çevirib. Elə bu səbəbdəndir ki, bu gün muxtar respublikada ömrünü Naxçıvanla bağlayan, burada daimi yaşamağa qərar verən başqa millətlərin nümayəndələri də az deyil. Vaxtilə Almaniyadan, Rusiyadan, Ukraynadan, Şimali Qafqazdan və digər regionlardan gələrək muxtar respublikada yaşayan bu insanların qədim diyarda məskunlaşmasının səbəbi təkcə ailə həyatı qurduqları şəxslərin azərbaycanlı olması ilə bağlı deyil. Göstərilən böyük hörmət, diqqət və qayğı, yüksək münasibət də onların Naxçıvanı vətən seçmələrinə, buranı doğma yurdları kimi sevmələrinə səbəb olub. Onlardan biri əslən Almaniyadan olan Erika Əliyevadır. Böyük Vətən müharibəsi zamanı Əhəd adlı azərbaycanlı ilə ailə həyatı quran Erika xanım 1945-ci ildə müharibə başa çatandan sonra onunla birlikdə Naxçıvana gəlib. Gənc yaşlarından Naxçıvanda yaşayan bu alman əsilli qadın indi özünü əsl naxçıvanlı sayır. Üç övladı var. O, muxtar respublikanın tolerantlıq, multikulturalizm dəyərlərinin yaşadıldığı region kimi dünyaya nümunə təşkil etdiyini vurğulayır.

Rusiya Federasiyasının Sverdlovsk şəhərindən olan Tatyana Georgiyevna da bu qənaətdədir. O deyir: "Mən Sverdlovskda Politexnik Texnikumunda oxuyurdum. İsfəndiyar isə Sverdlovska işləməyə gəlmişdi və orada inşaatda çalışırdı. İlk tanışlığımız mən texnikumda oxuyarkən oldu və 1973-cü ildə evləndik. Rusiyadan kənarda heç yerdə olmamışdım. Doğrusunu desəm, valideynlərim də kənar bir yerə getməyimizə razı deyildilər. Ancaq sonda onların da razılığını aldıq və Azərbaycana gəldik. İlk gəldiyim zamanlar bir az çətinliyim oldu. O da, əsasən, dillə bağlı idi. Qısa müddətdə dili öyrəndim, amma danışmağa utanırdım. Sonra isə zamanla bu da aradan qalxdı".

"Naxçıvana gəldikdən sonra sizi bura bağlayan ən çox nə oldu?" sualına isə belə cavab verir: "Əlbəttə ki, hər kəsin mənə mehriban münasibəti".

Milliyyətcə ukraynalı olan Yekaterina Yakovleva da muxtar respublikanın sakini olmaqdan razılıqla danışır: "Mən Naxçıvanda yaşamağımdan çox razıyam. Çünki burada ailə dəyərləri, insanların bir-birinə qarşı münasibəti çox yüksəkdir. Naxçıvana gəldikdən sonra bir neçə dəfə Ukraynaya getmişəm, qohumları, yaxınları ziyarət etmişəm. Onlar da bura məni görməyə gəliblər. Hazırda da telefonla əlaqə saxlayırıq. Ancaq Naxçıvan mənim üçün indi daha da doğmalaşıb. Burada 2 oğul, 1 qız böyütmüşəm. Özümü Naxçıvanda xoşbəxt sayıram".

Şahbuz şəhərindəki Ahıllar evində yaşayan yəhudi əsilli Violetta Çernışeva da naxçıvanlıların ona xoş münasibətindən ağızdolusu danışdı. Dedi ki, Bakıda anadan olsa da, ali təhsilini Rusiya Federasiyasının Pyatiqorsk şəhərində alıb. Həyat yoldaşı yəhudi olub. Sonra isə ondan ayrılıb. Tale onu Şahbuz rayonundakı Ahıllar evinə gətirib çıxarsa da, həyatın ona bəxş etdiyi sürprizlərə küsməyib. Müsahibimiz Naxçıvanda yaşamağın onun üçün çox rahat olduğunu bildirdi: "Buradakı insanların çoxu bir-birini tanıyır və hər kəs bir-birinə qarşı mehriban və qayğıkeşdir. Bəzən şəhərdə bir yerə gedərkən danışığıma görə buralı olmadığımı düşünüb mənə qarşı daha mehriban davranırlar, hər cür köməyi göstərirlər".

Bu gün muxtar respublikamızın bütün bölgələrində xeyli sayda ailələr var ki, ailə üzvlərindən birini digər millətlərin nümayəndələri təşkil edir. Hər bir millətin nümayəndəsi bu gün Naxçıvanda rahat yaşayır, xoşbəxt həyat sürür.

Multikulturalizm hər zaman bəşəriyyətin sosial və mədəni inkişafının, intellektual və mənəvi tərəqqisinin universal bazası olub. Bu baza xalqların tarixi məsuliyyətinə, siyasətə, idarəçiliyə, mədəni mübadiləyə, qarşılıqlı zənginləşməyə böyük təsir göstərib. Hər zaman olduğu kimi, müasir dövrdə də müxtəlif mədəniyyət və sivilizasiyaların dialoqunda multikulturalizm böyük rol oynayır. Ona görə ki, bəşəriyyət fərqli mədəniyyət və dünyagörüşlərin qarşılıqlı anlaşmasını, birgəyaşayışını təmin edən başqa bir yol tapmayıb. Bu səbəbdən eyni ölkədə yaşayan müxtəlif xalqların tarixi, dini, sosial, mədəni hüquqlarına humanist dünyagörüşü ortaya qoyan multikulturalizm, eyni zamanda cəmiyyətin öz daxilində ənənəvi dəyərlərin yaşadılmasına töhfəsini verən önəmli amildir. Bu gün Naxçıvan Muxtar Respublikasında da məhz bu dəyərlər yaşadılır.

✍ **Rauf ƏLİYEV**

## Sədərək rayonunda istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış təşkil edilib

***Sentyabrın 6-da Sədərək rayonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Sədərək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış açılıb.***

Sərginin açılış mərasimində Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasında dövlət qadın siyasəti uğurla həyata keçirilir. Bu siyasətin tərkib hissəsi olaraq qadınlarımız dövlət quruculuğunda, ictimai-siyasi sahədə fəal iştirak edir, onların əməyi yüksək qiymətləndirilir. Sədərək rayonunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrində çalışan qadınlar da öz bilik və bacarıqları, işgüzarlıqları və ictimai-siyasi həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər. Qadınların əl işlərindən ibarət sərgilərin təşkil olunması da bu tədbirlərin davamı kimi mühüm əhəmiyyət daşıyır.



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, 2015-ci ilin oktyabr ayında Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Muxtar respublika qadınları müstəqillik illərində" mövzusunda təşkil edilən sərgi-satışda iştirak edən Ali Məclisin Sədri belə sərgilərin hazırlanmasını yüksək dəyərləndirərək deyib: "Milli dəyərlərin yaşadılması sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdirilməlidir. Aid dövlət təşkilatları yaradılan şəraitdən istifadə edərək fəaliyyətlərini gücləndirməli, milli dəyərlərin əsas daşıyıcıları olan qadınlar bu işdə yaxından iştirak etməlidirlər. Hər bir kəndə, rayona xas olan milli dəyərlər muxtar respublikanın, muxtar respublikada toplanan milli dəyərlər isə ümumilikdə, Azərbaycan xalqının milli dəyərlər sisteminə daxildir. Ona görə də bu cür sərgilər Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayon mərkəzlərində də təşkil olunmalı, istedadlı qadınların fəaliyyətinə dəstək verilməlidir".

Vurğulanıb ki, verilən tapşırığa uyğun olaraq cari ilin ötən dövründə muxtar respublikanın rayon mərkəzlərində bu səpkidə sərgilər keçirilib. Sədərək rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsində məqsəd rayon üzrə qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaq, yüz illərdir, ailələrimizdə qorunub saxlanılan mənəvi irsimizi, zəngin dəyərə malik olan həyat tərzimizi ilmələrə, tablolara köçürmək və yaşatmaqdır. Ümumiyyətlə, indiyədək istedadlı qadınların rəsm və əl işlərindən ibarət olunan sərgi-satışlar xalq tətbiqi sənət növünün və əl işlərinin bənzərsiz nümunələri ilə seçilib. Bunun da səbəbi qadınlarımızın, o cümlədən Sədərək rayonundan olan qadınlarımızın öz əl işlərində milli dəyərlərə daha çox üstünlük verməsi, vətənpərvərlik cizgilərini daha çox qabartması olub. Çünki dünən bu günə çatmırsa, demək, bu gün də sabaha çatdırılmayacaqdır. Xalqımızın dünəninin bu günə, bu günün sabaha çatdırılması, heç şübhəsiz, milli dəyərlərimizin yaşadılması ilə sıx bağlıdır.

İstedadlı qadınlardan Tahirə Qasımova çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Sədərək rayonun qadınları adından minnətdarlıq edib.

Sərgi-satışda rayon üzrə 40 qadının 267 rəsm və əl işinin satışı təşkil olunub. Sulu və yağlı boya ilə işlənən tablolar, milli geyimlər, toxuculuq və bir-birindən maraqlı dekorativ-tətbiqi sənət nümunələri maraqla qarşılanıb. Tədbirdə istedadlı qadınlardan Vəfa Həsənova, Səkinə Abbasova, Ülviyyə Zeynalova və başqaları ilə həmsöhbət olduq. Onlar vurğuladılar ki, Naxçıvan qadınlarının firavan həyatına, ictimai mühitlə geniş əlaqələrinin yaradılmasına doğru yönəldilmiş belə addımlar onların gələcək yaradıcılığı üçün böyük stimuldur.

**H.ƏLİYEVA**

## Yeni elektron xidmət istifadəyə verilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən internet səhifəsi yaradılıb. Fondda və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunub, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılıb, əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılıb və informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri avtomatlaşdırılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunmuş 20 elektron xidmətin sayı 2016-cı ilin sentyabr ayından etibarən 21-ə çatdırılıb.

Fond tərəfindən sığortaedənlərin istifadəsinə verilmiş yeni "Dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciətin və sənədlərin qəbulu" elektron xidməti Naxçıvan Muxtar Respublikası "Elektron hökumət" portalında və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsində yerləşdirilib. Elektron xidmətdən istifadə üçün sığortaedən ***www.dsmf.nakhchivan.az*** internet ünvanına daxil olur, Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən verilmiş e-imza kartı ilə bu elektron xidməti seçir və müvafiq xanaları dolduraraq sorğu edir. Elektron formada göndərilmiş müraciət və sənədlər Dövlət Sosial Müdafiə Fondu orqanı tərəfindən qəbul edilir və bu barədə sorğu edənə elektron təsdiqetmə bildirişi göndərilir. Yeni istifadəyə verilmiş elektron xidmət dəfn müavinətinin alınması üçün müvafiq sənədlərin sığortaedən tərəfindən rəsmiləşdiriləndən sonra fondun yerli orqanlarına təqdim edilməsi prosesinə sərf olunan vaxtın minimuma endirilməsi ilə yanaşı, bu prosesin daha da sadələşdirilməsi və təkmilləşdirilməsi məqsədini daşıyır.

Müavinətin ödənişi fondun yerli orqanları tərəfindən dəfn üçün müavinətin ödənilməsi ilə bağlı sənədlərin elektron formada təqdim edilən haqq-hesab cədvəlinə, müavinət təyin edən komissiyanın protokolunun, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqan tərəfindən verilmiş ölüm haqqında arayış və öləni dəfn etməyi öhdəsinə götürən şəxs barədə bələdiyyə tərəfindən verilmiş arayışın skayner qurğusundan keçirilmiş surətlərinə əsasən həyata keçirilir. Xidmətdən istifadə üçün lazım olan fərdi eyniləşdirmə məlumatları düzgün daxil edilmədikdə xidmətdən istifadə mümkün deyildir. Müavinət təyin edən komissiyanın protokolunun, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqan tərəfindən verilmiş ölüm haqqında arayışın və müvafiq bələdiyyə tərəfindən verilmiş öləni dəfn etməyi öhdəsinə götürmüş şəxs barədə məlumatı əks etdirən arayışın skayn edilmiş surətləri təqdim edilmədikdə bu xidmətin göstərilməsindən imtina edilir.

Qeyd etmək lazımdır ki, dəfn üçün müavinətin məbləği sığortaolunanlar üçün Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli Fərmanına əsasən, 120 manat məbləğində, əmək pensiyaçısı vəfat etdikdə isə onun ailəsinə pensiyaçının vəfatı tarixinə yaşa görə əmək pensiyasının baza hissəsinin üç misli miqdarında, yəni 330 manat məbləğində təyin olunub.

Çoxsaylı pensiyaçı və sığortaolunanlara müasir əsaslarla xidmətin təşkili məsələlərinin həllində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. Sığorta-pensiya sistemində həyata keçirilən islahatlara uyğun olaraq fond tərəfindən digər elektron xidmətlərin də aktivləşdirilməsi və "Elektron hökumət" portalına inteqrasiya edilməsi istiqamətində tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi

***Şərur Texniki Peşə və Sürücülük Məktəbi 2016-2017-ci dərs ili üçün aşağıdakı ixtisaslar üzrə şagird qəbulu elan edir***

1. Xalçaçı – 3 ay
2. Bərbər – 3 ay
3. Bərbər-manikürçü – 3 ay
4. Fotoqraf – 2 ay
5. Kompüter istifadəçisi – 3 ay
6. Parket ustası – 2 ay
7. Suvaqçı – 2 ay
8. Üzlükçü-mozaikaçı – 3 ay
9. İnşaat rəngsazı – 1 ay
10. Divar kağızlarının yapışdırıçısı – 1 ay
11. Bənna – 2 ay
12. Daş məmulatları üzrə mərmərçi – 1 ay
13. Mebel quraşdırıcısı – 2 ay
14. Satıcı-kassir – 2 ay
15. İstilik sistemlərinin montajçısı – 2 ay
16. Dayə – 2 ay
17. Kafel ustası – 2 ay
18. Gözətçi – 1 ay
19. Qaynaqçı – 3 ay
20. Şüşəçi – 2 ay
21. Toxucu – 2 ay
22. Turizm agenti – 3 ay
23. Qaz çilingəri – 2 ay
24. Video çəkilişi üzrə operator – 2 ay
25. Ofisiant – 2 ay
26. Bufetçi – 1 ay
27. Aşpaz – 3 ay
28. Traktorçu-maşinist – 3 ay
29. Arıçı – 2 ay
30. Bağban – 1 ay
31. Qazanxana maşinisti – 1 ay
32. Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru – 3 ay
33. Kabel lehimləyici və rabitə montyoru – 3 ay
34. Mobil telefonların təmiri ustası – 2 ay
35. Dərzi – 3 ay
36. Ağac üzərində oyma – 2 ay
37. Bədii tikmə ustası – 2 ay
38. Çörək və qənnadı məmulatları ustası – 3 ay
39. Kran maşinisti – 3 ay
40. Elektron lövhə istifadəçisi – 1 ay
41. Avtomobil sürücüsü (təsərrüfathesablı)
*41.1. "A" kateqoriyalı – 1 ay*
*41.2. "B" kateqoriyalı – 1 ay*
*41.3. "BC" kateqoriyalı – 2 ay*
*41.4. "D" kateqoriyalı – 1 ay*
*41.5. "E" kateqoriyalı – 1 ay*
*41.6. "B" kateqoriyalı sürücülərin "C" kateqoriyası üzrə yenidən hazırlanması – 1 ay*
42. Mühərrikçi-çilingər – 1 ay
43. Avtomobil elektrikçisi – 1 ay
44. Avtomobil təmirçi çilingəri – 1 ay
45. Avtomobil təmirçi rəngsazı – 1 ay
46. Avtomobil təkərçisi – 1 ay
47. Avtomobil yuyucusu – 1 ay

***İxtisasartırma kursları***

1. Elektron lövhə istifadəçisi – 1 ay
2. Kompüter istifadəçisi – 2 ay
3. Bufetçi – 1 ay
4. Dayə – 2 ay
5. Gözətçi – 1 ay

Məktəbə IX-XI sinifləri bitirənlər (bütün yaş qruplarından) qəbul edilirlər. Sürücülük üçün sənədlər 18 yaşı tamam olmuş və 18-dən yuxarı yaş qruplarından qəbul edilir.

Məktəbə daxil olmaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Təhsil haqqında sənədin əsli və üzü*
*2. Yaşayış yerindən arayış*
*3. Şəxsiyyət vəsiqəsinin üzü*
*4. Sağlamlıq haqqında arayış (forma №86, sürücülük üçün şəkilli)*
*5. 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*6. Ərizə (direktorun adına)*

Şagirdlər yemək və yataqxana ilə təmin edilirlər.

Əlavə məlumat almaq üçün bu ünvana müraciət edə bilərsiniz:

***Şərur şəhəri, Sabir küçəsi 3***
***Telefon: 542-29-95***
***Sənədlər həftəiçi hər gün saat 9-dan 17-dək qəbul olunur.***

*------ Gəncliyimiz, gələcəyimiz -----*

## Gələcəyin həkimləri

*Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan abituriyentlərimiz tələbə adının sevincini yaşayırlar. Onlardan ikisini oxuculara təqdim edirik.*



**Qönçə ABBASOVA:** – Mən 1999-cu ildə Naxçıvan şəhərində anadan olmuşam. 2005-ci ildə Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul edilmişəm. Bu il isə həmin məktəbin 11-ci sinfini əla qiymətlərlə başa vuraraq ali məktəblərə qəbul imtahanında yüksək nəticə göstərərək tələbə adını qazanmışam. Atam həkim olduğundan məndə də uşaqlıqdan o sahəyə maraq hissi oyanmışdı. Atam onun sənətini davam etdirməyimi çox istəsə də, seçimi həmişə öz öhdəmə buraxırdı. Orta məktəbin ilk siniflərindən məndə təbiət elmlərinə xüsusi bir maraq oyanmışdı. Bu maraq ildən-ilə daha da gücləndi. Buna görə də mən 4-cü ixtisas qrupunu seçərək bu qrupda olan fənləri həvəslə öyrənməyə başladım. Sınaq imtahanlarında nəticələrim ürəkaçan olurdu. Ancaq qəbul imtahanı gününü həyəcanla gözləyirdim. Nəhayət, ali məktəblərə qəbul imtahanında 652 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına daxil oldum. Artıq tələbəyəm, həm də illərdir, xəyal etdiyim universitetin tələbəsi. Bu gün mənim üçün çox qürurvericidir. Muxtar respublikamızda təhsilin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə, üzərimdə əziyyəti olan bütün müəllimlərimə və hər zaman məni dəstəkləyən valideynlərimə minnətdaram. Bundan sonrakı illərdə də onların mənə olan etimadlarını doğruldacağıma söz verirəm.



**Hüseyn KAZIMOV:** – 1998-ci ildə Culfa rayonunun Saltaq kəndində anadan olmuşam. 2016-cı ildə bu məktəbi qızıl medalla bitirmişəm. Ali məktəblərə qəbul imtahanında 662 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Müalicə işi ixtisasına qəbul olunmuşam. Topladığım balla Azərbaycan Tibb Universitetinə qəbul olunmaq imkanı olsa da, mən Naxçıvanda təhsil almağı seçdim. Orta məktəbdə oxuduğum illərdən muxtar respublikada təhsilə göstərilən qayğını, savadlı kadrlara olan diqqəti görürdüm. Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə Ali Məclis Sədrinin görüşü də bu diqqət və qayğının davamıdır. Həmin görüşdə Ali Məclis Sədrinin üzünü biz gənclərə tutaraq dediyi sözlər, əminəm ki, orada iştirak edən gənclərin gələcək həyat planlarına bilavasitə təsir göstərəcəkdir. Ali Məclis Sədrinin dediyi kimi, biz gələcəkdə hansı sahədə çalışmağımızdan asılı olmayaraq, müstəqil Azərbaycana ləyaqətlə xidmət etməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməli, vətənpərvər bir gənc kimi vətən naminə çalışmalı, ümummilli liderimiz Heydər Əliyevin ideyalarının davamçısı olmalıyıq. Tələbə adı qazanmağımda əməyi keçən hər kəsə – müəllimlərimə, ailə üzvlərimə minnətdarlığımı bildirirəm.

✍ **Fatma BABAYEVA**

***İtmişdir***

Əliyev Yusif İsmayıl oğlunun adına olan 2776 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1050. Sifariş № 672